**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# MƏNZİL OĞURLUQLARININ İSTİNTAQ METODİKASININ XÜSUSİYYƏTLƏRİ

İxtisas: 5612.01 – Cinayət prosesi, kriminalistika və məhkəmə ekspertizası; əməliyyat-axtarış fəaliyyəti

Elm sahəsi: Hüquq

**İddiaçı:** **Orxan Kamal oğlu Yaqublu**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | Hüquq elmləri doktoru, professor<br>**Fuad Musa oğlu Cavadov** |
| Rəsmi opponentlər: | Hüquq elmləri doktoru, professor<br>**Kamil Nazim oğlu Səlimov** |
| | Hüquq elmləri üzrə fəlsəfə doktoru<br>**Səadət Səməd qızı Novruzova** |
| | Hüquq elmləri üzrə fəlsəfə doktoru<br>**Məleykə Nazim qızı Abbasova** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurası

Dissertasiya şurasının sədri:

_______________ hüquq elmləri doktoru, professor
**Ayxan Xankişi oğlu Rüstəmzadə**

Dissertasiya şurasının elmi katibi:

_______________ hüquq elmləri üzrə fəlsəfə doktoru
**Sahil Zahir oğlu Hüseynov**

Elmi seminarın sədri:

_______________ hüquq elmləri doktoru, professor
**Midhəd Seyidəhməd oğlu Qəfərov**

## İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Müstəqil Azərbaycan Respublikasının qarşısında duran ən ümdə vəzifələrdən biri cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun möhkəmləndirilməsi, habelə ölkəmizdə insan hüquq və azadlıqlarının daha etibarlı təmin edilməsindən ibarətdir. Bu sahədə qarşıda duran vəzifələrin yerinə yetirilməsi Azərbaycan dövlətçiliyinin əsas prinsiplərindən biridir, daim diqqət mərkəzindədir və konkret vəzifələrin qeyd edildiyi və dövlət tərəfindən həyata keçirilməli olan tədbirlərin müəyyən olunduğu müvafiq qanunlar və onların tətbiqi barədə fərmanlar qəbul edilməsi ilə təmin edilir.

Mənzil oğurluğu təkcə yaşayış binasına qanunsuz daxil olmanı deyil, həm də orada oğurluq edilməsi ilə bağlı xüsusi niyyətin olmasını nəzərdə tutur və ictimai qaydanı, vətəndaşların təhlükəsizliyini pozduğuna görə operativ həllini gözləyən problemlərdəndir. Mənzil oğurluğu cinayətlərinin açılması və profilaktikası bir çox hallarda əsasən istintaqın düzgün aparılmasından asılıdır. Azərbaycan Respublikasında mənzil oğurluğu cinayətlərinin daha çox cinayət-hüquqi problemlərinin həlli ilə bağlı tədqiqatlar aparılmış, ölkədə mənzil oğurluqlarının xüsusiyyətləri nəzərə alınmaqla, mənzil oğurluqlarının istintaqı problemləri, o cümlədən istintaq metodikası kifayət qədər tədqiq edilməmişdir.

Bu isə daim inkişafda olan mənzil oğurluğu cinayətləri ilə mübarizənin səmərəliliyinin yüksəldilməsinə mane olmaqla, aktuallığını saxlayır və bu cinayətlərin araşdırılmasında uzun illərin təcrübəsi istənilən nəticəni əldə etməyə imkan vermir.

Ölkə üzrə törədilən mənzil oğurluğu cinayətlərinin sayının artması və digər tərəfdən isə ibtidai araşdırma orqanlarının fəaliyyətinin metodiki, taktiki, təşkilati, texniki, həmçinin hüquqi təminatında hələ də mövcud bəzi çatışmazlıqların və nöqsanların olması açılmamış mənzil oğurluğu cinayətlərinin sayının azalmasına əks təsir göstərir. Mülkiyyət əleyhinə cinayətlər və onların arasında mənzil oğurluğu respublikada qeydə alınan cinayətlərin çox əhəmiyyətli bir hissəsini təşkil edir. Belə ki, 2022-ci ildə qeydə

alınan 36494 cinayət hadisəsinin 7794 faktı oğurluq, bunun isə 2173 faktı mənzil oğurluğu olmuşdur.

Mənzil oğurluqları ilə bağlı cinayət işlərinin araşdırılması zamanı obyektiv həqiqətin müəyyən edilməsi məqsədi ilə müstəntiq oxşar işlərdə yalnız təcrübəni deyil, həm də kriminalistik texnika, taktika, medodika və zərurət yarandıqda digər sahələrin müasir, elmi cəhətdən ümumiləşdirilmiş tövsiyələrini, təkliflərini də nəzərə almalı və tətbiq etməlidir.

Qeyd edilən hallar, mənzil oğurluğu ilə bağlı cinayət işləri üzrə araşdırmanın xüsusiyyətləri ilə şərtləşən təşkilati, taktiki və metodoloji xarakterli məsələlərin həlli üçün yeni nəzəri və təcrübi əhəmiyyətli tövsiyələrin hazırlanmasının və sistemləşdirilməsinin, həmçinin qanunvericiliyin təkmilləşdirilməsinin zərurəti tədqiqatının aktuallığını müəyyən edir.

Mənzil oğurluqlarının mahiyyəti, onunla mübarizənin cinayət-prosessual, kriminalistik və əməliyyat-axtarış aspektləri üzrə kompleks elmi tədqiqatların sayı o qədər də çox deyil və diqqəti cəlb etmir. Bu problemin ayrı-ayrı aspektləri əsasən 1990-2000-ci illərin əvvəllərində tədqiqat mövzusu olmuşdur. M.A.Гельфер [1]; E.A.Eqorışeva[2], İ.A.Bataev[3].Y.N.Astaşkina[4] Y.N., M.V. Zyuzina[5] və s. bu sahədə tədqiqatlar aparmışlar. Azərbaycanda isə oğurluq cinayətlərinin, xüsusilə də mənzil oğurluqlarının istintaqının metodikası ilə bağlı yaranan problemlərlə, bu fəaliyyətlə əlaqədar səlahiyyətli orqanların qarşılıqlı əlaqələri və s. bu kimi məsələlər son illərin nəzəri və təcrübi tədqiqatları nəzərə alınmaqla təhlil edilməmiş və araşdırılmamışdır.

---

[1] Преступления против личной собственности граждан. Учебное пособие /Отв. ред.: Здравомыслов Б.В. –М.: РИО ВЮЗИ, 1987. – 38 с.

[2] Первоначальный этап расследования краж из помещений, совершенных несовершеннолетними в группе:/автореферат дис.....к.ю.н./–М.,2004. –20 с.

[3] Оперативно-розыскное и криминалистическое обеспечение процесса расследования краж из квартир граждан:/дисс.к.ю.н./–Ижевск, 1998. – 178 с.

[4] Проблема оптимизации первоначального этапа расследования квартирных краж:/дисс...к.ю.н./– Саратов, 2001. – 211 с.

[5] Ситуационный подход в криминалистической методике расследования и судебного следствия по уголовным делам о квартирных кражах:/автореферат дисс....к.ю.н./–Краснодарь, 2012. –19 с.

Mənzil oğurluqlarının istintaqı sahəsində mövcud problemlərin aşkar edilməsinə və həlli yollarının müəyyən edilməsinə aşağıdakı prinsipial metodoloji müddəalar aspektində yanaşılmalıdır:

1) problemin mürəkkəb və əhatəli xarakteri ona sahələrarası elmi biliklərin inteqrasiyası əsasında kompleks yanaşmanı nəzərdə tutur;

2) kompleks elmi-praktiki təhlillər vasitəsilə Azərbaycan Respublikasında mənzil oğurluqlarının mahiyyətinin, xarakterik əlamətlərininin, kriminoloji və kriminalistik xarakteristikalarının tədqiq edilməsi;

3) mənzil oğurluqlarının istintaqında mümkün kriminalistik şəraitlərə uyğun olaraq müstəntiqin (təhqiqatçının) fəaliyyət alqoritminin müəyyən edilməsi;

4) mənzil oğurluğu hallarının təhlili əsasında ibtidai araşdırma prosesində təxirəsalınmaz istintaq hərəkətlərinin xüsusiyyətlərinin araşdırılması;

5) mənzil oğurluğunun istintaqı prosesində müstəntiqin (təhqiqatçının) digər orqanlarla qarşılıqlı fəaliyyətinin xüsusiyyətlərinin müəyyən edilməsi.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti mənzil oğurluğu cinayətlərinin törədilməsinin, qarşısının alınmasının və istintaqı, həmçinin Azərbaycan Respublikası cinayət prosessual qanunvericiliyinin, kriminalistikanın üsul və metodların tətbiqi prosesində yaranan ictimai münasibətlərdir.

Tədqiqatın predmetini mənzil oğurluqlarını araşdırılması ilə bağlı daxili işlər və digər orqanların fəaliyyətinin hüquqi, taktiki, metodiki və təşkilati xüsusiyyətləri, istintaq təcrübəsinin ümumiləşdirilmiş nəticələri təşkil edir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Mənzil oğurluqları problemləri, bu problemlərin həlli yolları ilə bağlı həm nəzəriyyəçi alimlər, həm də təcrübi işçilər arasında bəzi fikir ayrılıqları vardır. Bu məsələlərin vahid qaydada həll edilməsinin həm bu cinayətlərin istintaqı, həm də profilaktikası üçün mühüm praktiki əhəmiyyəti vardır. Buna görə də aparılan tədqiqatın əsas məqsədi göstərilən məsələlərin vahid qaydada həll edilməsinə köməklik göstərməkdən, metodiki tövsiyənin işlənib hazırlanmasından və bu sahədə

qanunverciliyin təkmilləşdirilməsindən ibarətdir.

Mənzil oğurluqlarının istintaqı metodikasının xüsusiyyətlərindən bəhs edən bu tədqiqatın əsas vəzifələri aşağıdakılardan ibarətdir:

1) mənzil oğurluqlarının mahiyyətinin, kompleks kriminoloji və kriminalistik xarakteristikasının tədqiq edilməsi;

2) mənzil oğurluqlarının istintaqında cinayət-prosessual, kriminalistik və əməliyyat-axtarış fəaliyyəti ilə bağlı məsələlər üzrə istintaq və məhkəmə təcrübəsinin ümumiləşdirilməsi əsasında müvafiq statistik məlumatlar nəzərə almaqla bu təcrübədə yol verilən nöqsanların aşkar edilməsi və onların aradan qaldırılmasına dair müvafiq təkliflərin işlənib hazırlanması;

3) mənzil oğurluqlarının istintaqının təşkili və istintaq hərəkətlərinin taktikasının təhlili əsasında, istintaqın metodikasının tətbiqi ilə bağlı yol verilən nöqsanların aradan qaldırılmasına dair müvafiq təklif və tövsiyələrin verilməsi;

4) mənzil oğurluqlarının araşdırılması məsələlərini nizama salan qüvvədə olan qanunvericilik normalarının təkmilləşdirilməsi, həmçinin boşluqların aradan qaldırılması istiqamətində müvafiq təkliflərin irəli sürülməsi.

**Tədqiqatın metodları.** Tədqiqatın metodoloji əsasını hüququn ümumi nəzəriyyəsinin, cinayət prosesinin, kriminologiyanın və kriminalistikanın əsas müddəaları təşkil edir. Eyni zamanda metodoloji məsələlərin işlənib hazırlanması prosesində psixologiyanın, məntiqin, sosiologiyanın, pedaqogikanın, məhkəmə ekspertizasının və əməliyyat-axtarış fəaliyyəti kimi elm sahələrinin nəzəri metodlarından, həmçinin satistik təhlil, case-study, analiz, sintez, müqayisəli təhlil və s. metodlarından istifadə edilmişdir. Statistik təhlil metodu son 10 ildə Azərbaycan Respublikasının məhkəmə təcrübəsinin, kriminalistik qeydiyyatla bağlı statistikanın təhlil edilməsinə, case-study metodu Bakı Ağır Cinayətlər Məhkəməsinin, Bakı şəhər Xətai rayon Məhkəməsinin, Gəncə Ağır Cinayətlər Məhkəməsinin, Gəncə şəhər Nizami rayon Məhkəməsinin və Gəncə şəhər Kəpəz Rayon Məhkəməsinin arxiv materiallarından, Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərindən istifadə edilməsinə, analiz metodu elmi ədəbiyyatların, məhkəmə təcrübəsinin məlumatlarının araşdırılmasına, müqayisəli təhlil

medotu müxtəlif ölkələrin qanunvericiliklərinin öyrənilməsinə tətbiq edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

Tədqiqatın qarşıya qoyduğu vəzifələrinə uyğun olaraq, onun məzmunundan çıxış edərək aşağıdakı yeni elmi müddəalar müdafiəyə çıxarılmışdır:

1. Mənzil oğurluqlarında cinayətkar davranışın motivasiyasının dərk edilməsi bu cinayətlərlə mübarizədə profilaktik fəaliyyətin sosial-hüquqi mahiyyətinin düzgün başa düşülməsini, onu doğuran səbəb və şəraitin hərtərəfli tədqiq edilməsini, kriminoloji təsnifatının müəyyən edilməsini şərtləndirir;

2. Kriminalistik nəzəriyyə və təcrübənin ən son nailiyyətləri nəzərə alınmaqla mənzil oğurluğu cinayətlərlərinin kompleks kriminalistik xarakteristikasına əsaslanan istintaq metodikasının işlənib hazırlanması bu cinayətlərin açılması, araşdırılması və qarşısının alınması üzrə daha səmərəli sübut əhəmiyyətinə malik məlumatların əldə edilməsinə kömək edir;

3. Mənzil oğurluqlarının açılması, araşdırılması və qarşısının alınması üzrə Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün səlahiyyətli orqanların qarşılıqlı əlaqəsinin, bu fəaliyyətin idarə edilməsini təmin edən kompleks tədbirlərin səmərəliliyinin və keyfiyyətinin, minimal vaxt, qüvvə və vəsait sərf etməklə ibtidai araşdırmanın təşkilinin səmərəliliyinin daha da artırılması məqsədilə müvafiq tənzimedici normaların təkmilləşdirilməsi və onların həyata keçirilməsi mexanizminin işlənib hazırlanması;

4. Mənzil oğurluqları üzrə ibtidai araşdırmaya cəlb edilmiş səlahiyyətli müstəqil subyektlər tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş metod və vasitələrdən razılaşdırılmış şəkildə istifadə olunması ümumi vəzifələrin kompleks həllini təmin edir;

5. Müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsi mənzil oğurluqlarının açılması və araşdırılması zamanı iş üzrə fərziyyələrin qurulmasına, planlaşdırmanın aparılmasına, müxtəlif tapşırıqların verilməsinə və digər zəruri tədbirlərinin keçirilməsinə kompleks yanaşmanın təmin edilməsi üçün birgə fəaliyyətin bütün müsbət amillərindən istifadə edilməsinə əsaslanmalıdır;

6. Mənzil oğurluqları üzrə cinayətlərin açılması və

cinayətkarların axtarışının xüsusi biliklərdən istifadə edilməsinə əsaslanan kriminalistik üsullarının tətbiqi səmərəli istintaq metodikasının böyük praktiki əhəmiyyət kəsb edən tərkib hissəsidir;

7. Mənzil oğurluqları ilə əlaqədar müstəntiqin cinayətkar fəaliyyətin qarşısının alınması üzrə profilaktik fəaliyyəti cinayət yoluna qədəm qoymuş şəxslərin qanunazidd fəaliyyətə cəlb edilməsinin qarşısının alınmasında mühüm rol oynayır;

8. İstintaq qrumlarının və əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqələrinin xüsusi forması müstəntiqin müvafiq təhqiqat orqanına və ya təhqiqatçıya ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsi barədə tapşırıqların verilməsidir. Bu müddəa CPM-in 85.4.7-ci maddəsində öz əksini tapmışdır. Lakin hüquq ədəbiyyatında təhqiqat orqanına müxtəlif anlayışların verilməsinə və həmin orqana həvalə edilən istintaq hərəkətlərinin dairəsi barədə fikirlərin olmasına baxmayaraq qanunda öz əksini tapmamışdır.

Məsələnin nəzəri və təcrübi əhəmiyyətini nəzərə alaraq, qanunvericilik tərəfindən müəyyən dəqiqləşdirmənin aparılması, təhqiqat orqanının anlayışının şərh edilməsi, habelə təhqiqat orqanına həvalə edilən halların və istintaq hərəkətlərinin dairəsinin müəyyən edilməsini məqsədəmüvafiq hesab edirik.

Buna görə də CPM-in 7.0.49-cu maddəsinə təhqiqat orqanı anlayışını nəzərdə tutan müvafiq bənd əlavə edilməlidir:

**7.0.49. təhqiqat orqanı - əməliyyat-axtarış tədbirlərinin keçirilməsi səlahiyyətinə malik cinayət-axtarış bölməsi və təhqiqat aparmaq, cinayət işi başlamaq və təxirəsalınmaz istintaq hərəkətlərini həyata keçirmək hüququna malik təhqiqat aparatıdır.**

**Qeyd olunan zərurətdən irəli gələrək CPM-in 85.4.7-ci maddəsində təhqiqat orqanı və ya təhqiqatçıya həvalə edilən istintaq hərəkətlərinin dairəsi konkret göstərilməldir.**

9. Mənzil oğurluqları ilə bağlı cinayətlərin araşdırılmasında bir sıra hallarda mütəxəssisin iştirakına zərurət yaranır. Hüquq ədəbiyyatında mütəxəssisin ibtidai araşdırmada iştirakının iki forması mövcuddur. Birinci formada mütəxəssis ayrı-ayrı istintaq və ya digər prosessual hərəkətlərin aparılmasında iştirak edir və nəticəsi protokolda öz əksini tapır. İkinci halda isə mütəxəssis iş

üzrə götürülmüş dəlillərin tədqiqini həyata keçirir və gəldiyi nəticəyə görə müvafiq sənəd tərtib edir. Lakin hüquq ədəbiyyatında və qanunda həmin sənədin adı ilə bağlı konkret göstəriş yoxdur. Ona görə də CPM-in 96.4.5-ci maddəsinə qeydlər vermək sözündən sonra **"dəlillərin tədqiqi barədə mütəxəssis rəyi vermək"** sözləri əlavə edilməlidir;

10. Mənzil oğurluqlarının araşdırılması zamanı mənzillərdən dövriyyəsi məhdudlaşdırılmış və qadağan edilmiş əşyalar (silah, narkotik vasitələr) ələ keçirilir. Araşdırma zamanı cinayət-hüquqi xarakterli məsələlərin həlli məqsədilə həmin əşyalar üzrə məhkəmə ekspertizasının təyin olunmasına zərurət yaranır. Bunu nəzərə alaraq CPM-nin 140-cı maddəsinə bəzi sübutlar əsasında müəyyən edilən hallar siyahısına aşağıdakı redaksiyada müvafiq bənd əlavə edilməlidir:

**140.0.6. Cinayət Məcəlləsinin xüsusi hissəsinin normasında qeyd edilən dövriyyəsi qadağan edilmiş predmetlər üzrə əməlin tövsifi üçün müfaviq məhkəmə ekspertin rəyi.**

11. Mənzil oğurluqları üzrə hadisə yerinə baxış zamanı aşkar edilmiş müxtəlif izlərlə yanaşı, əl-barmaq və bioloji izlər də tədqiq olunaraq qeydiyyata alınır, eləcədə götürülmüş həmin izlərin daktiloskopik və genom qeydiyyat üzrə yoxlanılması aparılır. "Dövlət daktiloskopik və genom qeydiyyatı" haqqında Qanunun 7-ci maddəsində məcburi dövlət daktiloskopik qeydiyyatın aparılması halları göstərilmişdir. Burada qanunvericilik cinayətin xarakterindən və ictimai təhlükəliliyindən asılı olmayaraq, onun bütün növ cinayətlər, habelə inzibati qaydada həbs edilmiş şəxslərdən daktiloskopik qeydiyyat aparılması üçün əl-barmaq izlərinin götürülməsini məcburi hal kimi müəyyən etmişdir. Lakin həmin Qanunun 14-cü maddəsinə əsasən yalnız ağır və ya xüsusilə ağır, həmçinin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə cinayət, o cümlədən uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya belə cinayətə görə məhkum olunmuş şəxslər məcburi dövlət genom qeydiyyatından keçirilməsi göstərilmişdir.

Qanunvericiliyin bu iki qeydiyyatı cinayətlərin ictimai təhlükəlilik dərəcəsinə və xarakterinə görə fərqləndirməsi

cinayətkarlığa qarşı mübarizəyə, talama cinayətlərinə, o cümlədən mənzil oğurluqlarının istintaqına böyük maneə yaratdığından Qanunun qeyd edilən 14-cü maddəsində məcburi genom qeydiyyatının "ağır və xüsusilə ağır cinayət törətmiş şəxslərin" sözlərinin, **"cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya məhkum olunmuş, habelə inzibati qaydada həbs edilmiş şəxslərin"** sözləri ilə əvəz edilsin;

12. Cinayət-prosessual qanunvericilikdə ittiham aktının təsviri-əsaslandırıcı hissəsində cinayətin törədilməsinin üsulu, motivi və məqsədinin qeyd edilməsi göstərilsə də, həmin cinayətin törədilməsinə səbəb və şərait yaradan halların əks olunmasının zəruriliyi barədə birbaşa göstəriş nəzərdə tutulmamışdır. Cinayətin törədilməsinə səbəb olan halların müəyyən edilməsi bir halda cəzanı yüngülləşdirən hal qismində, digər halda isə şəxsin şəxsiyyətini xarakterizə edən hal kimi məhkəmə tərəfindən nəzərə alına bilər. Bu baxımdan CM-in 59.2-ci maddəsində göstərilən hallardan başqa digər halların da cəzanı yüngülləşdirən hal qismində nəzərə alınmasının mümkünlüyünün göstərilməsi cinayətin törədilməsinə səbəb olan halların ittiham aktına qeyd edilməsini zəruri edir.

Bunları nəzərə alaraq CPM-in 139-cu maddəsinə sübut edilməli olan hallar siyahısına aşağıdakı redaksiyada müvafiq bəndi əlavə edilməsini məqsədəuyğun sayırıq:

**139.0.7. cinayətin baş verməsinin səbəb və şəraiti;**

**Bundan irəli gələrək** CPM-in 289.3-cü maddəsinə aşağıdakı redaksiyada müvafiq bənd əlavə edilməlidir:

**289.3.7. cinayətin baş verməsinin səbəb və şəraiti;**

**Tədqiqatın elmi yeniliyi**. Bu dissertasiya Azərbaycan Respublikasında mənzil oğurluqlarının istintaqı metodikasının xüsusiyyətlərinə həsr edilmiş ilk kompleks elmi-tədqiqat işidir. Kriminalistika və əməliyyat-axtarış fəaliyyəti üzrə elmi biliklərin ən son nailiyyətləri və qüvvədə olan cinayət-prosessual qanunvericiliyin müddəaları nəzərə alınmaqla, mənzil oğurluqlarının istintaqı metodikasının spesifik cəhətləri, müstəntiqin (təhqiqatçının) bu sahədəki fəaliyyətinin xüsusiyyətləri müəyyən edilmişdir.

Dissertasiya işində tədqiqatın yeniliyini göstərən məsələlərin həlli ilə bağlı aşağıdakı məqamlara da toxunulmuşdur:

1) mənzil oğurluqlarında şəxsin cinayətkar davranışının kompleks kriminoloji və kriminalistik xüsusiyyətləri şərh edilmişdir;

2) mənzil oğurluqlarının kriminalistik xarakteristikasının əsas elementləri fərqləndirilmiş və təhlil olunmuşdur;

3) mənzil oğurluqları ilə bağlı cinayət işləri üzrə istintaqın təşkili və istintaq hərəkətlərinin həyata keçirilməsinin taktiki və psixoloji xüsusiyyətləri araşdırılmışdır;

4) mənzil oğurluqlarının araşdırılması prosesində istintaq və digər orqanların qarşılıqlı əlaqəsi təhlil edilmiş, profilaktik fəaliyyətin əsas istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Dissertasiya işində nəzəri ədəbiyyatın və məhkəmə təcrübəsi materiallarının, habelə qüvvədə olan qanunvericiliyin müddəalarının təhlili əsasında mənzil oğurluqlarının istintaqı metodikası ilə bağlı bir sıra nəzəri və təcrübi problemlər tədqiq edilmiş və bu problemlərin aradan qaldırılması üzrə təklif və tövsiyələr işlənib hazırlanmışdır. Bu təklif və tövsiyələr kriminalistik metodikanın təkmilləşdirilməsinə və tətbiqinə, kriminalistika elminin nəzəri əsaslarının inkişafına və onun həyata keçirilməsi praktikasına müsbət təsir göstərir; mənzil oğurluqlarının araşdırılması üzrə istintaq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsində və digər problemlərin həllində istifadə oluna bilər.

İstintaq, məhkəmə təcrübəsinin ümumiləşdirilməsi və qanunvericiliyin müddəalarının təhlili əsasında aparılmış bu tədqiqatın nəticələrindən Azərbaycan Respublikasının hüquq-mühafizə orqanlarının işçiləri, ali məktəb tələbələri, kursantları, müəllimlər, ümumilikdə istintaq və məhkəmə təcrübəsi sahəsində çalışan bütün şəxslər tərəfindən nəzəri və praktiki bir vəsait kimi istifadə oluna bilər. Qanunvericilin təkmilləşdirilməsi üzrə təkliflərindən isə cinayət, cinayət-prosessual qanunvericiliyin və "Dövlət daktiloskopik və genom qeydiyyatı" haqqında Azərbaycan Respublikası Qanununun təkmilləşdirilməsində istifadə oluna bilər.

**Aprobasiya və tətbiqi.** Dissertasiyanın məzmununu təşkil edən əsas müddəalar, nəticə və təkliflər müəllif tərəfindən elmi məqalələr formasında dərc edilən əsərlərdə və elmi-praktiki konfrans materiallarında öz əksini tapmış, elmi və praktiki işçilərin nəzərinə çatdırılmışdır. Bundan başqa, işin nəticələrindən müəllifin müstəntiq

fəaliyyətində, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi əməkdaşlarının xidməti hazırlıq prosesində, Polis Akademiyasında tədris prosesində istifadə olunmuşdur. Mövzu üzrə respublikada və xarici elmi nəşrlərdə 10 elmi məqalə dərc olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzində yerinə yetirilmişdir.

**Dissertasiyanın strukturu.** Dissertasiya işi girişdən, 8 paraqrafı əhatə edən üç fəsildən, nəticə hissəsindən, istifadə olunmuş ədəbiyyat siyahısından və əlavələrdən ibarətdir.

## İŞİN ƏSAS MƏZMUNU

**Giriş** hissədə mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekti və predmeti, tədqiqatın məqsəd və vəzifələri, tədqiqat metodları, müdafiəyə çıxarılan əsas müddəalar, tədqiqatın elmi yeniliyi, tədqiqatın nəzəri və praktiki əhəmiyyəti, tədqiqatın aprobasiyası və tətbiqi, dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı, dissertasiyanın struktur bölmələrinin həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi göstərilmişdir.

İşin **"Mənzil oğurluqlarının kriminalistik xarakteristikaları və müəyyən edilməli olan hallar"** adlanan **birinci fəsli** iki paraqrafdan ibarətdir.

Birinci fəslin **"Mənzil oğurluqlarının kriminalistik xaraktersitikası"** adlanan birinci paraqrafında mənzil oğurluqlarının kriminalistik əhəmiyyətə malik əlamətlərinin düzgün müəyyən edilməsi məqsədilə cinayətlərin kriminalistik xarakteristikasına dair əsas elmi konsepsiyaların qısa təhlili verilmiş, həmçinin cinayətlərin kriminalistik xarakteristikalarının məzmununun təhlili əsasında mənzil oğurluqlarının kriminalistik xarakteristikasına aşağıdakı elementlərin (məlumatların) daxil edilməsi daha məqsədəmüvafiq hesab edilmişdir: cinayətin törədilməsi mexanizmi; üsulları; cinayətlərin törədilməsi yeri, vaxtı və şəraiti; cinayətlərin törədilməsində istifadə olunan alət və vasitələr; cinayətin subyektinin şəxsiyyətinin tipik xüsusiyyətləri; cinayətlərin tipik izləri və digər

maddi nəticələri; konkret cinayətin digər cinayətlərlə əlaqəsi; cinayətlərin törədilməsinə kömək edən səbəb (hallar) və şəraitlər.

Tədqiqat zamanı mənzil oğurluqlarının kriminalistik xarakteristikasının elementləri ətraflı şərh edilmiş və bu zaman təcrübi materiallara əsasən cinayətin törədilmə üsulunun seçilməsinə xüsusilə diqqət yetirilmişdir. Oğurluğun törədilmə üsulu - oğurluğun kriminalistik xarakteristikasının əsas elementi olub, cinayətin hazırlanması, törədilməsi və gizlədilməsi üzrə hərəkətləri vahid sistemdə birləşdirir.

Törədilmə üsuluna görə oğurluq əmlakın gizli talanmasıdır və cinayətkarların hərəkətinin xarakterinə görə oğurluğun bütün üsullarını iki əsas qrupa bölmək olar: evə, binaya, anbara və s. saxlanc yerlərinə girməklə və girməməklə bağlı üsullar.

Birinci qrup oğurluq cinayətləri kriminalistik ədəbiyyatlarda üç yarım qrupa bölünsə də (sındırmaqla müşayiət olunan, texniki vasitələrdən və yaxud xüsusi biliklərdən istifadə edərək gizli yolla girməklə törədilmiş oğurluq, maneəni sındırmaqla müşayiət olunmayan gizli yolla girməklə törədilən oğurluq, binaya, evə, mənzilə və s. açıq yolla girməklə (zərər çəkmişin və ya müəssisənin nümayəndəsinin gözləri qarşısında və ya onun razılığı ilə törədilən oğurluq)) təcrübi fəaliyyətdə eyni mənzildə yaşayan yaxın qohumlar tərəfindən törədilən oğurluqlara da tez-tez rast gəlinir ki, bunu da ayrıca təsnifləşdirilməsi məqsədəmüvafiq hesab edilmişdir[6]. Çünki ailə üzvləri tərəfindən törədilən cinayətlərin özünəməxsus kriminalistik xarakteristikası vardır. Ailə üzvləri tərəfindən törədilən cinayətlərin özünəməxsus kriminalistik xarakteristikası yaxın qohumların ailə kimi bir mənzildə yaşaması, pul, qızıl və digər əşyaların saxlanma yerlərini bilməsi, həmin əşyaları oğurlamalarının olduqca asan olması və bəzən əmlak sahibinin əmlakının ələ keçirilməsini müəyyən müddətdən sonra bilməsi ilə səciyyələnir.

Müasir dövrdə cinayətkarlar əsasən şəhərin mərkəzində yerləşən mənzillərdən oğurluğun törədilmə üsullarının seçilməsində, giriş-çıxış yollarının müəyyən edilməsində, hətta həmin sahə və

---

[6] Yaqublu, O.K. Mənzil oğurluqlarının törədilməsi üsulunun bəzi səciyyəvi xüsusiyyətləri və onun kriminalistik əhəmiyyəti//–Bakı: "Qanun" elmi hüquq jurnalı, –2023.№2 (340), – s. 57-64.

ətrafındakı binaların təhlükəsizlik kameralarının müəyyən edilməsində "Google Earth" və "Street View" saytların imkanlarından istifadə edirlər. Həmin mənzilər peyk və 3D şəkilləri xəritə təminatlı proqramlarına yükləndiyindən onların oğurluq üçün əlverişli olduğu müəyyən edilmişdir. *"Google Earth-ön havadan görünüş imkanları həyətdəki hasarları, ağacları və s. elementləri ayırd etməyə şərait yaradır"*[7].

"Mənzil" anlayışı milli qanunvericiliyə və "Avropa İnsan Hüquqları Konvensiyasının" müddəalarına uyğun olaraq, mülkiyət hüququnun elementlərindən asılı olmayaraq (sərəncam, istifadə və sahiblik) daimi və ya müvəqqəti yaşamaq üçün yararlı hesab edilən yaşayış sahələri kimi şərh edilmişdir.

Mənzillərdən oğurluğun t"örədilməsi üsulları geniş spesifikliyi ilə fərqlənir. Məsələn, mənzillərdən oğurluqlar müvəqqəti olaraq insanların olmadığı yerlərdə, əsasən səhər və gündüz vaxtlarda törədilir. Mağazalarda, anbarlarda isə, bir qayda olaraq, axşam və gecə vaxtlarda törədilir. İxtisaslaşmış peşəkar oğrular istintaq orqanlarının iş təcrübəsi ilə tanış olduğundan, müəyyən əks tədbirlər görürlər və onların iştirak etdiyi cinayətlər üzrə hadisə yerində maddi izlərin aşkar edilməsi minumuna enir.

Mənzil oğurluqları ilə bağlı cinayətlər üzrə onun predmeti, əlamətləri, əmlakın kimə məxsus olması, vurulan ziyanın xarakteri və miqdarı, törədilmə yeri, vaxtı, üsulu və şəraiti, cinayət əməlində iştirak edən şəxslərin dairəsi və həmin cinayətdə hər birinin rolu, cinayətin törədilməsinin səbəb və şəraiti və s. kimi halların müəyyən edilməsi araşdırmanın tam, obyektiv və hərtərəfli aparılmasını təmin edən şərt kimi nəzərə alınması məqsədəuyğun hesab edilməlidir.

Mənzil oğurluqlarının kriminalistik xarakteristikasında verilən məlumat sistemi bütövlükdə istintaqın ümumi istiqamətini müəyyənləşdirməklə, müstəntiqin hər bir konkret mənzil oğurluğu cinayəti üzrə yaranmış istintaq şəraitini nəzərə alaraq cinayətin baş

---

[7] Residential Burglary in Guelph: Looking at the Physical and Social Predictors of Break and Enters by Joel. App –2012. URL: https://atrium.lib.uoguelph.ca/server/api/core/bitstreams/3897cae7-f274-4bc6-80a3-37d2ed2eb63d/conten

vermə mexanizminin, müəyyən edilməli halların dairəsinin, həmçinin zəruri profilaktiki tədbirlərin müəyyən edilməsi istiqamətində zəruri məlumatların toplanılması məqsədilə müvafiq istintaq hərəkətlərini, əməliyyat-axtarış və digər tədbirləri keçirməsinə kömək edir.

Birinci fəslin **"Mənzil oğurluqlarının kriminoloji təhlili və bu kateqoriya işlər üzrə onun əhəmiyyəti"** adlanan ikinci paraqrafında mənzil oğurluqlarının kriminoloji aspektləri araşdırılmış və cinayərkarların hərəkətlərinin icrasının təmin edilməsi məqsədilə proqram və planın hazırlanması, informasiya toplama vasitələrinin müəyyən edilməsi və informasiyaların toplanması, toplanan informasiyaların işlənməsi və təhlili, tədqiqatın nəticələrinin ümumiləşdirilməsi və ondan istifadə edilməsi mərhələləri fərqləndirilmiş və ətraflı şərh edilmişdir.

Cinayətlərin törədilməsinə kömək edən halların aşkar edilməsi üzrə müstəntiqin istifadə etdiyi metodlar, o, prosessual qanunvericilik çərçivəsində fəaliyyət göstərdiyindən, bir çox cəhətdən oxşardır. Buna görə də müstəntiq, törədilmiş istər mənzil oğurluqları ilə bağlı cinayətlərə, istərsə də bu kateqoriya şəxslər tərəfindən törədilmiş digər cinayətlərə diqqət yetirilməlidir. Cinayətlərin törədilməsinə kömək edən halların aşkar edilməsi üzrə məhkəmənin fəaliyyəti müstəntiqin fəaliyyətinə nisbətən daha məhduddur, istintaq orqanı tərəfindən bu halların dərindən araşdırılmasından və iş üzrə materiallarda öz əksini tam və ətraflı tapmasından asılıdır. Kifayət qədər məlumatlar olduqda, hakimlərdə həm cinayətkarın şəxsiyyəti, həm də cinayətlərin törədilməsinin səbəbləri barədə müəyyən fikir formalaşır.

Mənzil oğurluqlarının törədilməsinə kömək edən səbəb və şəraitlər çox vaxt aşkar, aydın olmur, onları aşkar etmək üçün *"şəxsin yaşına, onun inkişaf etdiyi və tərbiyə aldığı mühitə, təhsil və iş şəraitinə və s. aid olan faktları müəyyən etmək, təhlil etmək və qiymətləndirmək lazımdır"*[8]. Həmçinin, bir çox hallarda ayrı-ayrı səbəblər deyil, bütöv hallar məcmusu birləşərək şəxs tərəfindən

---

[8] Ширалиева, С.Д. Криминалистическое матрицирование и анализ деятельности при расследовании квартирных краж //–Bakı: "Elm və təhsil", – 2004.№9. – s. 111-120.

cinayətin törədilməsi üçün əlverişli mühit, şərait yaradır.

Cinayətkarın şəxsiyyətinin, onun həyat və tərbiyə şəraitinin dərindən və hərtərəfli öyrənilməsi yalnız cinayətlərin törədilməsinə kömək edən halların aşkar edilməsinə xidmət etmir, eyni zamanda onun gələcək taleyi barədə düzgün qərarın qəbul edilməsi üçün şərait yaradır. Müstəntiq yalnız kifayət qədər məlumatlara malik olduqdan sonra, məsələn, yeniyetmə barədə işin məhkəməyə göndərilməsi və ya tərbiyəvi xarakterli tədbirlərin görülməsi barədə əsaslı qərar qəbul edə bilər. Təqsirləndirilən şəxs barədə tam məlumatlara malik olan məhkəmə, onun islah olunmasını təmin edən hökm çıxarmaq iqtidarında olur.

Təqsirləndirilən şəxsin şəxsiyyətinin, onun həyat və tərbiyə şəraitinin tədqiqi istintaq və məhkəmə baxışı gedişində müəyyən çərçivə ilə məhdudlaşmamalıdır.

Yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən cinayətlər haqqında hər bir cinayət işi üzrə aşağıdakılar müəyyən edilməlidir: təqsirləndirilənin ailədə həyat və tərbiyə şəraiti; yeniyetmənin təhsil və iş şəraiti; yeniyetmənin maraq dairəsi və vaxtı necə keçirməsi; yeniyetmənin xarakterinin xüsusiyyətləri, onun cinayətin törədilməsindən əvvəlki davranışı.

*"...YYÇ-lar tərəfindən törədilən cinayətlərin araşdırılması zamanı onların yuxarıda qeyd edilən real həyat şəraiti ilə yanaşı virtual həyatı da, yəni hansı sosial şəbəkələrdən istifadə etməsi, həmin şəbəkələrdə nə kimi sayt və kanalları izləməsi mütləq araşdırılmalı və dəyərləndirilməlidir"*[9].

Cinayətin törədilməsindən əvvəlki dövrdə şəxsin xarakterinin xüsusiyyətləri və onun davranışı haqqındakı məlumatlar da çox vaxt onun tərəfindən cinayətin törədilməsinə məhz hansı halların kömək etməsini izah edə bilər. Cinayət törədənədək şəxsin davranışı dərindən öyrənilməlidir. Bu zaman onu müsbət tərəfdən xarakterizə edən hallar da obyektiv surətdə araşdırılmalıdır. Məhz bu məsələlərin obyektiv tədqiqi cinayətin təsadüfən törədilməsini və ya bu əməlin onun şəxsin əvvəlki davranışını məntiqi surətdə tamamladığını

---

[9] Daanov, C. Müstəntiqin yetkinlik yaşına çatmayanlar tərəfindən törədilən talama əməllərinin profilaktikasına dair fəaliyyəti //– Bakı:Polis Akademiyasının "Elmi xəbərləri" elmi hüquq jurnalı, –2022. №1 (33), –s. 5-12.

müəyyən etməyə imkan verir.

Həm araşdırmalar, həm də statistika göstərir ki, mənzil oğurluqların törədilməsinə səbəb olan hallardan içərisində işsizlik, şəxslərin aldığı təhsilin səviyyəsinin aşağı olması, cəzaçəkmə müəssisələrində məhkum olunmuş şəxslərlə islahedici işin düzgün təşkil edilməməsi, cinayətlərin vaxtında qeydə alınmaması xüsusi yer tutur[10].

Bu baxımdan cinayət hadisələri barədə məlumatları qəsdən qeydiyyatdan gizlətmə və ya qeydiyyata almama əməlinin törədilməsinin xüsusi norma halında Azərbaycan Respublikasının CM-nə əlavə edilməsi məqsədəmüvafiq hesab edilməlidir.

Yuxarıda qeyd edildiyi kimi, şəxsin böyüdüyü mühit, aldığı təhsil, işsizliyi və əvvələr məhkum olması və s. faktorlar birlikdə və ya ayrı-ayrılıqda onun tərəfindən oğurluq cinayətlərini üçün əlverişli mühit, şərait yaradır.

Müstəntiq cinayətin törədilməsinə kömək edən hallara dair məlumatları müxtəlif üsullarla, həmçinin şəxsin ailədə həyat şəraitini, onun iş və təhsil şəraitini təhlil etməklə əldə edə bilər.

Cinayət işi üzrə icraata xitam verilməsi barədə qərarda, ittiham aktında, hökmdə cinayətin törədilməsinə yol açmış səbəb və şəraitin əks olunması əhəmiyyətli məsələlərdən biridir. Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin 221-ci maddəsinə müvafiq olaraq, ibtidai araşdırmanın aparılması zamanı müstəntiq cinayətin törədilməsinə imkan yaradan halları (səbəb və şəraiti) müəyyən etdikdə müvafiq hüquqi və ya vəzifəli şəxsin ünvanına cinayətin törədilməsinə şərait yaradan halların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimat göndərir. Qeyd edilən təqdimata baxılması məcburidir, nəticəsi barədə bir ay müddətində müstəntiqə yazılı məlumat verilməlidir. Təcrübədə bir qayda olaraq, təqdimatları müstəntiqlər istintaqın sonunda göndərirlər və təqdimata baxılmasının nəticəsi barədə istintaqa yazılı məlumat verildikdə, cinayət iş artıq məhkəməyə göndərilmiş olur. Cinayət işi müstəntiqin icraatında olmadıqda, həmin iş üzrə hər hansı hərəkətin edilməsi

---

[10] Yaqublu, O.K. Mənzil oğurluğu cinayətlərinin törədilməsinə səbəb və şərait yaradan halların kriminalistik xüsusiyyətləri //–Bakı: Polis Akademiyasının "Elmi xəbərləri" elmi hüquqi jurnalı, –2023. №4(40), – s. 118-124.

qanunvericilik baxımdan yol verilməzdir. Buna görə də müstəntiqlər cinayət işinin yekunlaşdırılmasını gözləmədən təqdimatı gecikdirmədən göndərməli və həmin təqdimatın baxılmasının nəticəsi barədə yazılı cavab ittiham aktında öz əksini tapmalıdır.

Qanunvericilikdə cinayətin törədilməsinin səbəbi müəyyən edildikdə, bu istiqamətdə görüləcək hərəkətlər barədə göstəriş yoxdur. Bu fəaliyyətin nəticələri istintaqın sonunda çıxarılan sənəddə (cinayət işi üzrə icraata xitam verilməsi barədə qərarda, ittiham aktında) öz əksini tapmalıdır.

Cinayət-prosessual qanunvericiliyində ittiham aktının təsviri-əsaslandırıcı hissəsində cinayətin törədilməsinin üsulu, motivi və məqsədi göstərilsə də, həmin cinayətin törədilməsinə səbəb və şərait yaradan halların əks olunması zəruriliyi barədə birbaşa göstəriş yoxdur. Halbuki, cinayətin törədilməsinə səbəb olan halların müəyyən edilməsi bir halda cəzanı yüngülləşdirən hal qismində (cinayətin ağır həyat şəraiti nəticəsində və ya mərhəmətlik niyyəti ilə törədilməsi və s.) nəzərə alınmasına səbəb ola, digər halda isə şəxsin şəxsiyyətini xarakterizə edən hal kimi (məsələn, oğurluğu narkotik vasitə almaq üçün etməsi və s.) məhkəmələr tərəfindən nəzərə alına bilər. CM-in 59.2-ci maddəsində göstərilən hallardan başqa digər halların da cəzanı yüngülləşdirən hal qismində nəzərə alınmasının mümkünlüyünün göstərilməsi cinayətin törədilməsinə səbəb olan halların ittiham aktına qeyd edilməsini zəruri edir.

Cinayətin baş verməsinin səbəb və şəraitinin müəyyən edilməsinin CPM-nin 139-cu maddəsinə əsasən sübut edilməli halların siyahısına, CPM-nin 289.3.1-ci maddəsinə (ittiham aktının təsviri-əsaslandırıcı hissəsinə) əlavə edilməsini məqsədəmüvafiq hesab edirik. Qanunvericiliyə təklif olunan bu əlavələr bir-birini təkrarlamır.

Bir qayda olaraq, ayrı-ayrı ünvanlara göndərilən təqdimatlarda cinayət törətmiş şəxsə dair yalnız müəyyən hallar ətraflı təhlil olunur. İttiham aktında bu halların ümumi təhlilini vermək olar. Bu hallar işin dayandırılması barədə qərarda və ya hökmdə göstərilərsə, bu sənədləri qəbul edərək təşkilat onları aradan qaldırmaq üçün tədbirlər görə biləcəkdir. Hökmdə öz əksini tapmış məlumatlar məhkumların yenidən tərbiyə olunması və islah olunması ilə məşğul olan

müəssisəsinin əməkdaşlarına böyük kömək edə bilər.

Hökmdə cinayətin törədilməsinə səbəb olan hallar, cinayət hadisəsinin özünün göstərilməsindən sonra, təsviri hissənin sonunda göstərilə bilər.

Rəsmi statistik məlumatlara əsasən 2018-2021-ci illərdə mənzil oğurluqlarının sayının azalmasının səbəbləri içərisində 2017-ci il tarixdə CM-nin 177.1-ci maddəsi üzrə məsuliyyətin yaranması üçün məbləğin yüz manatdan beş yüz manata qaldırılması, həmçinin 2020-ci ildə koronavirus pandemiyasının elan edilməsi ilə əlaqədar insanların hərəkətlərinə tətbiq olunan məhdudiyyətlər nəticəsində həm mənzil sahiblərinin, həm də ki, mənzil oğurluğu cinayətlərini törətməyə meyilli şəxslərin mənzillərini tərk etmə hallarının azalmasını qeyd etmək olar.

Azərbaycan Respublikasında mənzil oğurluqlarına şəxslərin cəlb olunmasına təsir göstərən kriminogen şəraitin sosial, psixoloji, iqtisadi və s. amillərini müntəzəm surətdə tədqiq edən, ümumilikdə yetkinlik yaşına çatmayan şəxslərin cinayətlərə cəlb olunması problemlərini tədqiq edən *"Kriminoloji Tədqiqatlar Mərkəzinin yaradılmasını"* dəstəkləyirik[11].

Dissertasiyanın **"Mənzil oğurluqlarının istintaqının təşkili və istintaq hərəkətlərinin taktiki xüsusuiyyətləri"** adlanan **ikinci fəsli** üç paraqrafdan ibarətdir.

İkinci fəslin **"Mənzil oğurluqlarının istintaqın təşkilinin əsasları"** adlanan birinci paraqrafında müxtəlif kriminalist alimlərin istintaqın təşkili məsələləri ilə bağlı yanaşmaları təhlil edilmiş və onun elementləri müəyyən edilmişdir.

İstintaqın təşkili anlayışı konkret şəraitlərdə daha səmərəli texniki-kriminalistik vasitələrin və taktiki üsulların seçilməsini və s. xarakterizə *"edən toplayıcı (yığıcı) anlayış kimi nəzərdən keçirilir"* [12] . Cinayətlərin müxtəlif növlərinə (qruplarına) münasibətdə bu anlayışla razılaşmaq olar.

---

[11] Mansurov, V.Ş. Cinayətkarın şəxsiyyətinin öyrənilməsinin kriminoloji problemləri // "Qloballaşan cəmiyyətdə hüquq elminin aktual problemləri" Respublika elmi konfransının materialları, –Bakı: –9aprel, –2008, – s. 193-195.

[12] Белкин, Р.С. Курс криминалистики: учебное пособие для вузов. –М: ЮНИТА-ДАНА, –2001. – 990 с.

Cinayətlərin ibtidai araşdırılmasının təşkilinə dair Azərbaycan Respublikası CPM-nin bir sıra maddələrində normalar vardır. Buna müstəntiqin zəruri prosessual qərarlar qəbul etməsi, istintaq və ya digər prosessual hərəkətləri həyata keçirməsi, əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsini, ayrı-ayrı istintaq hərəkətlərinin keçirilməsini təhqiqat orqanına, təhqiqatçıya, müstəntiqə tapşırması və s. aiddir. Müstəntiq zəruri istintaq və prosessual hərətkətləri bir halda özü müstəqil halda həyata keçirir, digər halda isə bu hərəkətlərin həyata keçirilməsini digər şəxslərə həvalə edir.

Cinayətlərin ibtidai araşdırılmasının təşkili aşağıdakı elementlərdən ibarətdir: cinayət əlamətləri olan hadisələr və onlarda iştirak edən şəxslər haqqında informasiyaların toplanması, öyrənilməsi və qiymətləndirilməsi; planlaşdırma; yaxın strukturlarla əlaqələndirilmə və ya qarşılıqlı əlaqə; təşkilati və taktiki qərarların qəbul edliməsi; nizama salma (cinayətin açılması üzrə planauyğun fəaliyyət); kriminalistik proqnozlaşdırma; işlərin uçotu, təhlili və nəzarət[13].

İstintaqın təşkili daha geniş anlayış olub, özündə həm planlaşdırmanı, həm də digər sturuktur elemetləri ehtiva edir. Planlaşdırma kompleks kriminalistik metod olmaqla, müstəntiqin proqram fəaliyyətidir, istintaq prosesinin idarə edilməsi metodlarından biri olmaqla, verilmiş tapşırıqların yerinə yetirilməsi prosesidir, məzmun baxımdan daha əlverişli metodların, üsulların və vasitələrin müəyyən edilməsidir. Planlaşdırmanın növləri aparılan istintaq və əməliyyat-axtarış tədbirlərinin məzmunundan asılı olaraq müəyyən edilir.

Yaxın strukturlarla əlaqələndirmə və ya qarşılıqlı əlaqə dedikdə, mənzil oğurluqlarına qarşı mübarizədə prokurorluq və daxili işlər orqanları əməkdaşlarının razılaşdırılmış hərəkəti başa düşülür.

Təşkilati-taktiki qərarların qəbul edilməsi cinayətlərin açılması və araşdırılması prosesinin hər bir mərhələsində həll edilməli vəzifələrin formalaşdırılmasına imkan verən toplanmış məlumatların

---

[13] Məmmədov F.M. İstintaq və əməliyyat-axtarış fəaliyyətinin qarşılıqlı əlaqəsinin psixologiyası //– Bakı: "Qanunçuluq", –1998. № 4, – s. 15-18.

öyrənilməsi və qiymətləndirilməsidir. Bu vəzifələrin yerinə yetirilməsindən əvvəl təşkilati-taktiki qərar qəbul olunmalı və *"istintaq şəraiti və ona təsir göstərən amillər nəzərə almaqla ən optimal hərəkət müəyyən edilməlidir"*[14]. Təşkilati-taktiki qərarlar vaxtında qəbul edilməli, qanunilik, əsaslılıq, icranın vaxtında və real aparılması tələbləri rəhbər tutulmalıdır.

Törədilmiş cinayətin tez açılması konkret şəxs tərəfindən yeni cinayət əməllərini törətməyə yönəlmiş cinayətkar fəaliyyətinin həm hazırlıq dövründə, həm də cinayət törədildiyi zaman qarşısını almağa imkan verir.

Mənzil oğurluqları ilə bağlı cinayət işləri üzrə istintaqın keyfiyyəti və səmərəliliyi də bir çox cəhətdən cinayət işinin vaxtında başlanılmasından çox asılıdır. Hətta *"cüzi ləngimə belə cinayət törədən şəxslər tərəfindən yeni oğurluqların törədilməsinə, sübutların itirilməsinə, ələ keçirilmiş əmlakın tez bir zamanda realizə edilməsinə və nəticədə istintaqın çətinləşməsinə gətirir"*[15].

Hadisənin bütün halları və təqsirkar şəxslərin onların şəxsiyyəti, cinayətkar fəaliyyətin epizodları, aparılmış istintaq hərəkətlərinin və əməliyyat-axtarış tədbirlərinin nəticələri və s. haqqında məlumatlar haqqında bütün informasiya uçota alınmalı və təhlil edilməlidir.

İşin uçotu və təhlili müstəntiqin, əməliyyat işçisinin işində arzuolunmaz nəticələrin qarşısının alınmasına kömək edir. Uçotun daha optimal variantı EHM-dən istifadə etməklə şəxsi kompüter və ya informasiya sistemlərinin tətbiqidir.

İkinci fəslin **"Mənzil oğurluqları ilə bağlı cinayət işləri üzrə kriminalistik şəraitlər, istintaqın planlaşdırılması və kriminalistik fərziyələrin irəli sürülməsinin xüsusiyyətləri"** adlanan ikinci paraqrafında mənzil oğurluğu cinayətləri ilə bağlı kriminalistik şəraitlərin anlayışı, institaqın planlaşdırılmasının elementləri, kriminalistik fərziyyələrin xüsusiyyətləri araşdırılmışdır.

---

[14] Яблоков, Н.П., Криминалистика: учебник и практикум для рпикладного бакалавриата. 3-е изд. и доп. –М.: Издательства Юрайт, –2017. –240с.

[15] Qasımov, Ə.Ə. Cinayət işi başlama ilə əlaqədar meydana çıxan problemlər və onların ibtidai araşdırmaya rəhbərlik edən prokuror tərəfindən həlli. Monoqrafiya. –Bakı: "Bakı Universiteti" nəşriyyatı, – 2008. –192 s.

Kriminalistik (istintaq) şərait cinayətlərin açılması və araşdırılması prosesinin müəyyən şəraitlərinin qarşılıqlı əlaqələrinin mürəkkəb sistemidir və araşdırmanın gedişi və ümumi vəziyyəti, araşdırma prosessində mövcud vəziyyət, hadisənin əsas ziddiyətli tərəflərini əks etdirən faktiki məlumatların məcmusu və ya araşdırmanın həyata keçirilməsi zamanı amillərin və halların məcmusu, yəni sübutetmə prosessinin davam etdiyi şərait kimi qəbul edilir. İstintaq şəraitinin formalaşmasına təsir edən amilləri mahiyyətinə görə obyektiv və subyektiv olaraq ayırmaq olar.

İstintaq şəraiti dedikdə, araşdırmanın müəyyən mərhələsində təşəkkül tapmış, bu mərhələ hüdudlarında mövcud olan, cinayətin istintaqı prosesində həqiqətin müəyyən edilməsi üçün real məlumatlara əsaslanan və istintaq fəaliyyəti elementlərinin optimallığı ilə xarakterizə olunan faktiki vəziyyətlər başa düşülür.

İstintaq şəraitinin öyrənilməsi və qiymətləndirilməsi prosesinə onu xarakterizə edən zəruri məlumatların əldə edilməsi, şəraitin tərkib elementlərinin müəyyən edilərək hissələrə ayrılması, analiz edilmiş məlumatların müqayisə edilərək tərkib hissələrinin sintez olunması, həmçinin, nəticələrin formalaşdırılması, zəruri qərarların qəbul edilməsi kimi vəzifələrin və məqsədlərin müəyyən edilməsi aiddir.

İstintaq şəraitinin təhlili və qiymətləndirilməsi bir tərəfdən cinayətin baş vermə mexanizminin sübutetmə subyekti tərəfindən düzgün dərk edilməsinə, digər tərəfdən iş üzrə keçirilən prosessual hərəkətlərin və qeyri-prosessual tədbirlərin səmərəli həyata keçirilməsinə şərait yaradır.

Mənzil oğurluqları cinayətlərin ibtidai araşdırmasının təşkilini təmin etmək üçün tipik kriminalistik fərziyyələr irəli sürülməlidir. İlk əvvəl cinayətin törədilmə üsulu və vasitələri, yeri və vaxtı barədə irəli sürülülən kriminalistik fərziyələr ətraflı təhlil olunmalıdır. Tipik kriminalistik fərziyyələrin irəli sürülməsi gələcəkdə görüləcək işlərin istiqamətini, demək olar ki, müəyyən edir və müəyyən mənada son nəticəyə nail olunmasına təsir göstərir. Ümumi fərziyyələrlə yanaşı, həmçinin cinayət tərkibinin ayrı-ayrı elementlərinə aid olan xüsusi fərziyyələr də irəli sürülür.

Cinayətin "mənzərəsinin" hələ tam məlum olmadığı hallarda,

bütün fərziyyələrin ancaq ardıcıl metod ilə deyil, eyni zamanda paralel metodu ilə yoxlanılması məqsədəuyğundur. Əks halda bu təcrübədə vaxt itkisinə səbəb olur.

Mənzil oğurluqları ilə əlaqədar irəli sürülmüş fərziyyələrin yoxlanılmasında istintaq hərəkətləri ilə yanaşı digər üsullar: əməliyyat-axtarış tədbirləri, müstəntiqin və əməliyyat işçilərinin təşkilati və sadəcə yoxlama hərəkətləri də tətbiq edilə bilər.

Mənzil oğurluqları ilə bağlı cinayət işləri üzrə ibtidai araşdırmanın uzandığı hallarda, müstəntiqlərə bəzən cinayət işi üzrə toplanmış materiallara və əməliyyat materiallarına qayıtmaq tövsiyə edilir. Hər bir sənəd yenidən öyrənilir və təhlil edilir, məqsəd əvvəllər irəli sürülmüş bütün fərziyyələrin təsdiqlənməsi və ya rədd edilməsi barədə dəqiq təsəvvür əldə etməkdir, həmçinin bütün şübhəli şəxslərin lazımi şəkildə yoxlanılmasını təmin edir.

İstintaq planı cinayət işi üzrə həqiqəti müəyyən etmək üçün müstəntiq tərəfindən həyata keçirilməsi nəzərdə tutulan hərəkətlərin məqsədyönlü ardıcıllıqla müəyyən edilmiş sistemi olduğu üçün o, kriminalistik fərziyyələrin qurulması ilə əlaqədədir. Belə ki, *"baş vermiş cinayətlə əlaqədar qurulmuş fərziyyələrə uyğun istintaq planı qurulur, fərziyyələr yoxlanılır"*[16].

Mənzil oğurluqları ilə bağlı cinayət işləri üzrə ibtidai araşdırmanın planı tərtib edilərkən müstəntiqin iş yükü, onun icraatında olan digər işlərin həcmi nəzərə alınmalıdır. Bu kateqoriya cinayətlərlə bağlı cinayət işi başlanan andan sona qədər icra edilməli olan istintaq hərəkətləri və əməliyyat-axtarış tədbirlərinin dairəsini əvvəlcədən müəyyən etmək çətin olur. Belə ki, yeni fərziyyələr ortaya çıxa bilər ki, bu da planlaşdırmaya dəyişikliklər olunmasını zəruri edir. Odur ki, planlaşdırma mərhələlərlə aparılmalıdır. Birinci mərhələdə təxirəsalınmaz istintaq hərəkətləri planı, ikinci mərhələdə ibtidai istintaqın geniş planı, üçüncü mərhələdə isə ibtidai istintaq gedişində ortaya çıxan konkret halların yoxlanılması üzrə digər hərəkətlər planı tərtib edilir.

---

[16] Салимов, К.Н., Алиев, Б.А. Методика расследования террористических преступлений. –Баку:Ганун, –2003. – 536 с.

İkinci fəslin **“Mənzil oğurluqları ilə bağlı cinayət işləri üzrə istintaq hərəkətlərinin taktiki xüsusiyyətləri”** adlanan üçüncü paraqrafında isə qeyd edilən cinayətlər üzrə hadisə yerinə baxış, dindirmə, ifadənin yerində yoxlanılması, axtarış və götürmə, ekspertizanın təyin edilməsi və digər istintaq hərəkətinin keçirilməsinin taktiki xüsusiyyətləri ətraflı təhlil edilmişdir.

“Hadisə yerinə baxış”ın hər bir mərhələsində edilməli olan hərəkətlər ardıcıllığının alqoritm kimi müəyyən edilməsi bu sahədə nöqsanların aradan qaldırılmasına kömək edir. Hadisə yerinin müayinəsinə mütəxəssisin cəlb edilməsi istintaq hərəkətinin səmərəliliyini artırır. Mütəxəssisin məsuliyyətinin artırılması üçün onun rəyi də ekspertin rəyi kimi yazılı formada tərtib edilərək imzalanmalı, bilə-bilə yalan rəy verməyə görə cinayət məsuliyyəti daşıması barədə xəbərdar edilməlidir. Bu baxımdan CM-nin 297.1-ci maddəsində “ekspert” sözündən sonra “və ya mütəxəssis” sözlərinin əlavə edilməsi, CM-nin 299.1-ci maddəsində “ekspertin” sözündən sonra “və ya mütəxəssis” sözlərinin əlavə edilməsi, habelə, CM-nin 299.2-ci maddəsində “ekspertin” sözündən sonra “və ya mütəxəssis” sözlərinin əlavə edilməsi, CM-nin 287-ci maddəsində “ekspertin” sözündən sonra “mütəxəssisin” sözünün əlavə edilməsi məqsədəuyğun hesab edilir[17].

Gizlənmiş cinayətkarların, oğurlanmış əmlakın və iş üzrə həqiqətin müəyyən edilməsi üçün əhəmiyyət kəsb edən digər obyektlərin yerinin aşkar edilməsi, bəzi hallarda axtarışda iştirak edən bütün şəxslərin, ilk növbədə, kriminalistlərlə sıx əlaqədə işləyən istintaq və əməliyyat-axtarış bölmələri əməkdaşlarının hərəkətlərinin əlaqələndirilməsindən asılıdır.

Oğurluq etmiş şəxsin müəyyən edilməsi üzrə taktiki əməliyyat aşkar etmə, təhlil, sistemləşdirmə və bunun əsasında hadisənin mexanizmi və ona aidiyyatı olan şəxslərin dairəsi barəsində fərziyyələrin formalaşdırılması; konkret şəxsin (şəxslərin) aşkar edilməsi; ittiham irəli sürülməsi üçün toplanmış sübutların

---

[17] Yaqublu, O.K. Mənzil oğurluqlarının istintaqında mütəxəssisin iştirakı, onun hüquq və qanuni mənafeyinin qorunmasında qanunvericilikdə olan aktual problemlər/ “Müasir dövrdə insan hüquqların aktual problemləri” Beynəlxalq elmi-praktik konfransının materialları, –Bakı: – 27 dekabr. – 2022, – s. 190-197.

sistemləşdirilməsi mərhələlərindən keçərək reallaşdırılır.

Cinayətin subyektinin müəyyən edilməsinin ən mühüm vasitələrindən biri kimi kriminal və əməliyyat-axtarış uçotu, daktiloskopik və genom qeydiyyatı, cinayətin törədilməsi üsulu, nömrəli əşyaların uçotu, həbs olunmuş, təqsirləndirilən, cinayətlərə görə məhkum olunmuş, axtarışda olan şəxslər və s. haqqında məlumatları əhatə edən əməliyyat-axtarış uçotu, hadisə yerində izləri aşkar edilmiş əşyaların, materialların, ilk növbədə, tipik sındırma alətlərinin və cinayətlərin törədilməsi zamanı istifadə olunan alətlərin, məmulatların hissələrinin (ayaqqabı altlığı, geyim, nəqliyyat vasitəsi və s.) nümunələrinin, habelə silahlı hücumların törədildiyi yerlərdən götürülmüş güllələrin, gilizlərin kolleksiyalarının toplandığı məlumat-köməkçi uçotundan istifadə imkanları nəzərə alınmalıdır.

Araşdırılmasının ilkin mərhələsində oğurlanmış əmlakın axtarışının tipik şəraitləri müəyyən edilməli və hər bir şəraitdə axtarışın istiqamətləri qeyd edilməlidir.

"Cinayətkarın ifşa edilməsi" taktiki əməliyyatının işlənib hazırlanması konkret vəzifələrin fərqləndirilməsini nəzərdə tutur. Nəzərdən keçirilən taktiki əməliyyatın həyata keçirilməsinin gedişində həll edilməli olan vəzifələr sırasında aşağıdakılar fərqləndirilə bilər: oğurluq faktının müəyyən edilməsi; oğurluğun törədilməsi mexanizminin aydınlaşdırılması; mənzil oğurluğu törətmiş şəxsin müəyyən edilməsi; əlbir şəxslərin və cinayət fəaliyyətinin müxtəlif mərhələlərində onlardan hər birinin rolunun müəyyən edilməsi; oğurluq törədilməsinin şahidi olmuş şəxslərin dairəsinin müəyyən edilməsi; şübhəli şəxsə (məsələn, oğurlanmış əmlakın saxlanma, yaxud satış yerinə daşınmasında) yardım göstərmiş, yaxud ondan oğurlanmış əşyaları almış şəxslərin dairəsinin aşkar edilməsi və s.

Məlumatların əldə edilməsinin prosessual və qeyri-prosessual növləri vardır. Cinayət əlamətli hadisələr və onlarda iştirak edən şəxslər haqqında informasiyaların toplanması, öyrənilməsi və qiymətləndirilməsinin qeyri-prosessual əsasını isə əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsi nəticəsində əldə edilməsi təşkil edir.

Cinayətkarın ifşa edilməsi üzrə taktiki əməliyyatın həyata keçirilməsi vasitələrinin müəyyənləşdirilməsi və onun iş modelinin

tərtib edilməsi onun uğurla aparılmasına təkan verir. Artıq qeyd etdiyimiz kimi, bu əməliyyatın vasitələri sırasına əməliyyat-axtarış tədbirləri, istintaq hərəkətləri və ictimaiyyət nümayəndələrinin köməyindən istifadə edilməsi aiddir.

Dissertasiyanın **"Mənzil oğurluqlarının istintaqında müstəntiqin digər orqanlarla qarşılıqlı əlaqəsi və müstəntiqin profilaktiki fəaliyyəti"** adlanan **üçüncü fəsli** üç paraqrafdan ibarətdir.

Üçüncü fəslin **"Mənzil oğurluqlarının istintaqı prosesində müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsinin xüsusiyyətləri"** adlanan birinci paraqrafında qeyd edilir ki, mənzil oğurluqlarının istintaqı prosesində müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsi dedikdə, təşkilati cəhətdən müstəqil subyektlər tərəfindən ümumi vəzifələrin kompleks həllinə istiqamətlənmiş, qanunvericilikdə nəzərdə tutulmuş qaydada, *"hər bir tərəfin malik olduğu metod və vasitələrdən istifadə etməklə həyata keçirilən birgə razılaşdırılmış fəaliyyət başa düşülür"*[18].

CPM-də cinayətlərin istintaqı zamanı istintaq və təhqiqat orqanlarının qarşılıqlı fəalliyətini əks etdirən və ümumi müddəalarını təşkil edən "qarşılıqlı fəaliyyət" termininə rast gəlinmir. Lakin məcəllənin müvafiq maddələrində cinayətlərin açılması və istintaqı gedişində bu orqanlara həvalə edilmiş fəaliyyətin mahiyyəti kifayət qədər açılmışdır. İstintaq və təhqiqat orqanları arasında qarşılıqlı əlaqə dedikdə, araşdırılması qanunvericiliklə səlahiyyətlərinə aid edilmiş cinayətlərin aşkar edilməsi, qarşısının alınması, açılması, həmin cinayətlərin törədilməsinə şərait yaradan halların müəyyən edilməsi və aradan qaldırılması, habelə cinayətkarlıqla mübarizədə onların üzərinə düşən başqa vəzifələrin yerinə yetirilməsi ilə bağlı müəyyən edilmiş birgə fəaliyyət başa düşülür.

Mənzil oğurluqları ilə bağlı cinayət işləri üzrə ibtidai araşdırma zamanı qarşılıqlı əlaqə aşağıdakı mərhələlərdən ibarətdir: mənzil oğurluqları haqqında məlumatların əməliyyat (istintaqa qədər)

---

[18] Гармаев, Ю.П. Использование результатов оперативно-розыскной деятельности при расследовании уголовных дел о незаконном обороте наркотиков:Практическое пособие. –М.:Изд.дом Шумиловой И.И., –2005. – 83 с.

yoxlanması; əməliyyat yoxlama materialları üzrə (mənzil oğurluğu ilə bağlı cinayətin əlamətləri mövcud olduqda) cinayət işinin başlanılması; konkret mənzil oğurluğu ilə bağlı cinayət işi üzrə ibtidai araşdırma. Mənzil oğurluqları ilə bağlı cinayətlər üzrə ibtidai araşdırmada qarşılıqlı əlaqənin effektivliyini təmin etmək üçün iştirak edən hər bir orqan və ya konkret şəxs tərəfindən işlə bağlı birgə müzakirə üçün sualların qoyulmasında təşəbbüskarlıq; bu müzakirələr zamanı, prosessual və xidməti vəziyyətindən asılı olmayaraq bütün qarşılıqlı əlaqə iştirakçılarının bərabərliyi; birgə qəbul olunmuş qərarlar üzrə hər bir qarşılıqlı əlaqə subyektinin (orqan və ya qrup üzvünün) bu qərarların realizəsində müstəqilliyi; qarşılıqlı əlaqədə olan proses iştirakçılarının bir-birinə zəruri köməklik göstərməsi kimi şərtlərə riayət olunmalıdır.

CPM-də təhqiqat orqanının məzmununu izah edən norma olmasa da, təhqiqat orqanı dedikdə, əməliyyat-axtarış tədbirlərinin keçirilməsi səlahiyyətinə malik cinayət-axtarış bölməsi və təhqiqat aparmaq, cinayət işi başlamaq və təxirəsalınmaz istintaq hərəkətlərini həyata keçirmək hüququna malik təhqiqat aparatı başa düşülür. CPM-in 85.4.7-ci maddəsində qanunvericilik təhqiqat orqanı ilə təhqiqatçı anlayışını "və ya" olaraq da göstərməsini nəzərə aldıqda, müstəntiqin istintaq hərəkətlərinin əməliyyat müvəkkilinə tapşırmaq hüqunun olmasını görə bilirik. Birbaşa sübutların aşkar edilməsi və götürülməsi ilə bağlı olan, o cümlədən də zərərçəkmiş, şübhəli və təqsirləndirilən şəxslərin, hadisəni birbaşa görən şahidlərin dindirilməsi istintaq hərəkətinin təhqiqat orqanına həvalə edilməsi məqsədəmüvafiq deyildir. Axtarışda olan şəxslərin, azadlıqdan məhrum etmə və ya həbs yerlərindən, yaxud mühafizə altından qaçmış şəxslərin yerinin müəyyən edilməsi ilə bağlı yaşayış və ya qeyri-yaşayış yerlərində axtarış keçirilməsi kimi istintaq hərəkətinin təhqiqat orqanına həvalə edilməsinin mümkünlüyü nəzərə alınmalıdır. Hər bir halda bununla bağlı qanunvericilik tərəfindən müəyyən dəqiqləşdirmə aparılaraq, "təhqiqat orqanı" anlayışının şərh edilməsi, təhqiqat orqanına həvalə edilən halların və istintaq hərəkətlərin siyahısının müəyyən edilməsi daha məqsədəmüvafiq olardı.

İstintaq və əməliyyat (təhqiqat) orqanlarının birgə fəaliyyətinin

formasından asılı olmayaraq, onlar həmişə müxtəlif müstəqil funksiyalı orqanlar kimi fəaliyyət göstərirlər. Mənzil oğurluqlarının açılması və araşdırılması üzrə müstəntiqə kömək məqsədilə bir qrup əməliyyat işçisinin ayrılması haqqında qərar (yaxud istintaq-əməliyyat qrupunun yaradılması haqqında qərar) özünü təcrübədə doğruldur, ümumi işin öhdəsindən gəlməyə şərait yaradır.

Üçüncü fəslin **"Mənzil oğurluqlarının istintaqında xüsusi biliklərdən istifadə"** adlanan ikinci paraqrafı cinayətlərin açılması və araşdırılmasında hüquq-mühafizə orqanları, o cümlədən prokurorluq, məhkəmə işçiləri tərəfindən xüsusi biliklərdən istifadə olunmasının təhlil edilməsinə və xüsusiyyətlərinin müəyyən edilməsinə həsr edilmişdir.

Mənzil oğurluqları ilə bağlı xüsusi biliklərdən istifadənin başqa bir forması məhkəmə ekspertizasıdır və daha çox məhkəmə-trasoloji, məhkəmə daktiloskopik, məhkəmə-əmtəəşünaslıq, məhkəmə-genetik, məhkəmə-bioloji, məhkəmə-kimyəvi, məhkəmə-fototexniki və digər növ ekspertizalar təyin olunur. Qanunvericilik həmçinin sübutlar əsasında müəyyən edilən halları, yəni ekspertizaların təyin edilməsinin məcburiliyi hallarını göstərmişdir.

CM-in 227,232,235,326 və s. bu kimi maddələrdə göstərilən cinayətin predmetləri üzrə ekspertizanın təyin edilməsinin CPM-in 140-cı maddəsində bəzi sübutlar əsasında müəyyən edilən hallar siyahısına əlavə edilməsi məqsədəmüvafiq olardı[19].

Bəzi hallarda mənzil oğurluğu törətmiş şəxs (şəxslər) mənzilə daxil olduqdan sonra orada bioloji izlər, yəni qan, tüpürcək, tük, dırnaq, dəri, tər, orqanizmin digər ifrazatları, diş, toxuma nümunələri buraxır ki, həmin izlər üzrə də cinayət törətmiş şəxslərin müəyyən edilməsində və şəxsiyyətin eyniləşdirilməsində məhkəmə-genetik ekspertizasının təyin edilməsi mühüm əhəmiyyət kəsb edir.

Cinayət işlərinin istintaqında bioloji izlərdən ən çox araşdırılan DNA olsa da, bu izləri hadisə yerlərində aşkar etmək həmişə mümkün olmur. Lakin hadisə yerlərində mikroorqanizmlər həmişə olur. Hər bir mikroorqanizmin mikrobiyom adlanan genomu vardır

---

[19] Yaqublu O.K. Mənzil oğurluqlarının istintaqında xüsusi biliklərdən istifadənin nəzəri və təcrübi aspektləri //–Bakı: "Qanun" elmi hüquq jurnalı, –2023.№7 (345), – s. 72-77.

ki, bu da şəxsiyyətin eyniləşdirilməsində mühüm rol oynayır. Hadisə yerindən götürülmüş mikrobiloji izlərin tədqiqinin müsbət nəticə verməsi bu izlərin aşkar edilməsi, götürülməsi, qablaşdırılması, daşınması və tədqiqi zamanı müəyyən edilmiş qaydalara riayət edilməsi səviyyəsindən asılıdır. Hər hansı bir səhv müdaxilə (açıq əllə və maskasız toxunma, asqırmaq, öskürmək və s.) bu izləri yarasız vəziyyətə gətirir. *"Mikrobioloji izlər həm bioloji, həm də trasoloji izlər olaraq sinifləndirilir"*[20].

Şəxsiyyətin eyniləşdirilməsi məqsədilə dövlət daktiloskopik və genom qeydiyyatın aparılması "Dövlət daktiloskopik və genom qeydiyyatı" haqqında Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. Qanun məcburi dövlət daktiloskopik qeydiyyatın aparılması hallarını müəyyən edərkən, cinayətlərin ictimai təhlükəlilik dərəcəsindən və xarakterindən asılı olmayaraq, onun bütün növ cinayətlər üzrə, həmçinin inzibati qaydada həbs edilmiş şəxslərdən daktiloskopik qeydiyyat aparılması üçün əl-barmaq izlərinin götürülməsini məcburi hal kimi müəyyən etmişdir. Lakin Qanunun 14-cü maddəsinə əsasən yalnız ağır və ya xüsusilə ağır, həmçinin şəxsiyyətin cinsi toxunulmazlığı və cinsi azadlığı əleyhinə cinayət, o cümlədən uşaqlara qarşı cinsi istismar və ya cinsi zorakılıqla bağlı cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya belə cinayətə görə məhkum olunmuş şəxslər məcburi dövlət genom qeydiyyatından keçirilir.

Qanunvericiliyin bu iki qeydiyyatı cinayətlərin ictimai təhlükəlilik dərəcəsinə və xarakterinə görə bölməsi cinayətkarlığa qarşı mübarizəyə, talama cinayətlərinə, o cümlədən də mənzil oğurluqların istintaqına böyük manеə yaradır. Nəzərə almaq lazımdır ki, oğurluq cinayəti üzrə əməlin ağır cinayət hesab edilməsi əmlakın dəyərindən asılıdır. Məcburi genom qeydiyyatına alınan cinayət törətmiş şəxslərin sayı ümumi cinayət törətmişlərin cəmi 16.6 faizini əhatə edir. Qanunvericlikdə məcburi genom qeydiyyatı ilə bağlı belə bir məhdudiyyətin tətbiq edilməsi cinayətkar qəsdə məruz qalan vətəndaşların konstitusion hüquqların müdafiəsində qeyri-bərabərliyə

---

[20] Gülekçi, Y. və Şener, H. "Olay yeri incelemede spesifik alanlar-I". –Ankara: Nobel Akademik Yayıncılık, –2024. –264 s.

yol verilməsinə səbəb olur. Azərbaycan Respublikası Konstitusiyasının 29-cu maddəsininin mülkiyyətin heç bir növünə üstünlük verilməməsi, cinayətlərin 85 faizindən artığının böyük ictimai təhlükə törətməyən və az ağır cinayət olmasını, həmçinin mülkiyyət əleyhinə törədilən cinayətlərin böyük əksəriyyətinin məhkum olunmuş şəxslər tərəfindən törədilməsini nəzərə aldıqda, "Dövlət daktiloskopik və genom qeydiyyatı" haqqında Qanunun 14-cü maddəsi vətəndaşların əmlakın dəyərindən, nəticə etibarilə də cinayətlərin ağırlıq dərəcəsindən asılı olaraq onun pozulmuş hüquqların bərpası üzrə fəaliyyəti məhdudlaşdırır. Buna görə də Qanunun 14.1.1-ci maddəsində "ağır və ya xüsusilə ağır," sözlərinin "cinayət törətməkdə şübhəli bilinən, təqsirləndirilən və ya məhkum olunmuş, habelə inzibati qaydada həbs edilmiş şəxslərin," sözləri ilə əvəz edilməsi məqsədəmüvafiqdir[21].

Üçüncü fəslin "**Mənzil oğurluqlarının istintaqında müstəntiqin profilaktiki fəaliyyəti**" adlanan üçüncü paraqrafı ümumi hüquq profilaktikasının bir hissəsi kimi kriminalistik profilaktikanın, o cümlədən müstəntiqin mənzil oğurluqlarının profilaktikasının xüsusiyyətlərinin araşdırılmasına həsr edilmişdir.

*"Mənzil oğurluqları ilə bağlı cinayət işləri üzrə müstəntiqin profilaktik fəaliyyətinin başlıca məqsədi – konkret cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin müəyyən edilməsi və aradan qaldırılmasıdır"*[22].

CPM-nə müvafiq olaraq, konkret cinayət işinin materialları üzrə müstəntiqin profilaktik fəaliyyəti həm konkret halların, həm də bütövlükdə cinayətlərin törədilməsinə kömək edən halların aradan qaldırılmasına yönələ bilər.

Müstəntiqin üzərinə cinayətin törədilməsinə imkan yaradan halların (səbəb və şəraitin) müəyyən edilməsi və onların aradan qaldırılması üçün tədbirlər görülməsi barədə təqdimatına baxılması

---

[21] Yaqublu O.K. Mənzil oğurluqlarının istintaqında xüsusi biliklərdən istifadənin nəzəri və təcrübi aspektləri //–Bakı: "Qanun" elmi hüquq jurnalı, –2023.№7 (345), – s. 72-77.

[22] Əzimov, Z. Cinayətin açılmasında müstəntiqin əməliyyat-axtarış orqanları ilə qarşılıqlı əlaqəsinin bəzi məsələləri //–Bakı: "Hüquqi dövlət və qanun", – 2001.№4-5, – s. 29-34.

məcburidir və nəticəsi barəsində isə bir ay müddətində müstəntiqə yazılı məlumat verilməlidir. Təcrübədə müstəntiqlərin təqdimatları yalnız ümumi xarakter daşıyır və cinayətin törədilməsinə kömək edən səbəb və şəraitin dərindən təhlili verilmir. Bu müstəntiqlərin həmin halları dərindən öyrənməməsi və ya etinasızlıq göstərməsi ilə izah oluna bilər. Təqdimatlarda bir çox hallarda sadəcə pozuntunun xarakteri izah olunur və təkrar baş verməməsi üzrə tədbirlərin gücləndirilməsi xahişi öz əksini tapır, lakin hansı tədbirlərin görülməsi, cinayətin törədilməsinin konkret səbəbi göstərilmir.

Müstəntiqlərin çıxarılmış təqdimatların icrasına nəzarəti çox zəifdir, bir qayda olaraq müstəntiqlər hansı tədbirlərin görülüb-görülməməsi ilə maraqlanmır. Bu isə CPM-in 221.2-ci maddəsinin tələblərinə əsasən müstəntiqin təqdimatına baxılması məcburiliyi, nəticəsi barədə bir ay müddətində müstəntiqə yazılı məlumat verilməsi tələbinin pozulmasıdır. Müstəntiq bir ay keçdikdən sonra, bəzən isə daha tez onun təqdimatı üzrə hansı işlərin görülməsi ilə maraqlanmalı, ünvan sahiblərindən yazılı cavab tələb etməlidir.

Oğurluq faktları ilə bağlı materialları yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaya göndərilməli, cinayət törətmiş şəxsin təhsil aldığı, işlədiyi və ya yaşadığı yerlərdəki kollektivlərin iclaslarında konfidensiallıq nəzərə alınmaqla, həmçinin mətbuat, radio və televiziya ilə çıxış zamanı müstəntiq mənzil oğurluqlarının törədilməsinə kömək edən hallar və cinayətin törədilməsi üsulları, eyni zamanda beynəlxalq təcrübə öyrənilməklə bu kimi cinayətlərin baş verməsini qabaqlayacaq tədbirlər barədə məlumatlar verməlidir. Qanunvercilikdə qeyd olunsa da, "Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyalar haqqında Əsasnamədə" Komissiyanın tərbiyəvi xarakterli məcburi tədbirlərin görülməsi, o cümlədən də nəzarətə götürmə tərbiyəvi xarakterli tədbirlərin tətbiq edilməsi ilə bağlı səlahiyyətləri qeyd edilməmişdir, həmiçinin "Yetkinlik yaşına çatmayanların baxımsızlığının və hüquq pozuntularının profilaktikası haqqında" Qanununda tənzimləmə predmetindən kənarda qalmışdır. Odur ki, qeyd edilən hallar qanunvericilikdə olan boşluq kimi qiymətləndirilib gələcəkdə nəzərə alınmaldır.

Cinayətin bütün iştirakçılarının aşkar edilməsi və məsuliyyətə

cəlb olunması istənilən istintaqın vacib məsələsidir. "*Müstəntiqin profilaktik fəaliyyətinin əsas istiqamətləri cinayətin bütün iştirakçılarının aşkar edilməsi, cinayətkarların ifşa edilməsi və məsuliyyətə cəlb olunması ilə bağlıdır*"[23]. Əgər şəxs ifşa olumazsa, o, yenidən cinayət törədə bilər. Buna görədə müstəntiq istintaq zamanı cinayət törədilməsində iştirak etmiş şəxsləri, o cümlədən də YYÇ-ları cinayətkar fəaliyyətə cəlb etmiş təhrikçiləri müəyyən edərək məsuliyyətə cəlb edilməsini təmin etməlidir.

Təhqiqat və istintaq orqanlarının profilaktik fəaliyyətində xüsusi biliyə malik mütəxəssislərin tövsiyələri də mühüm əhəmiyyətə malikdir. Prosessual fəaliyyətdə ekspertiza idarələrinin mütəxəssisləri ilə daimi, operativ və qarşılıqlı yardıma əsaslanan əlaqələrin yaradılması hüquq pozuntularının baş verməsinə şərait yaradan halların aşkar olunması və onların qarşısının alınması üzrə profilaktika işinə böyük təsir göstərir.

Müstəntiqlər tərəfindən mənzil oğruluqları istintaqı zamanı məhkəmə ekspertizaları təyin edilərkən tədqiqatın aparılmasında digər suallarla yanaşı cinayətin törədilməsinə şərait yaradan halların müəyyən edilməsi barədə də ekspertin qarşısında müvafiq sualar qoyulmalıdır.

**Nəticə** hissəsində əsas nəzəri ümumiləşdirmələr və təkliflər sistemləşdirilmiş şəkildə təqdim edilmişdir.

**Əlavə** hissəsində yetkinlik yaşına çatmayan mənzil oğrusunun tərbiyyə şəraitinin və onlar tərəfindən cinayətlərin törədilməsinə kömək edən halların öyrənilməsi üzrə elektron "Kartoçka", mənzil oğuruğu ilə bağlı preventiv ədbirlər adlı buklet və mənzil oğurluqlarının araşdırılması üzrə treninq proqramı yerləşdirilmişdir.

---

[23] Kərimov, E. Müstəntiqin öz işini planlaşdırması // – Bakı:"Hüquq dövlət və qanun", –1998.№2, – s. 78-81.

**Dissertasiyanın mövzusu üzrə müəllifin aşağıdakı elmi əsərləri nəşr olunmuşdur:**

1. Ягублу, О.К., Профилоктическая деятельность следователя как самостоятельный элемент методики квартирных краж//Актуальные проблемы правовой защиты публичных и частных интересов в Российской Федерации и Азербайджанской Республике. Материалы международной научно-практической конференции, – Воронеж: –13 декабря, –2013, –с.175-181;

2. Yaqublu, O.K. Mənzil oğurluğu ilə bağlı cinayətlər üzrə hadisə yerinin baxışı istintaq hərəkətinin həyata keçirilməsi nəticəsində cinayətkarın şəxsiyyəti haqqında məlumatın toplanmasının taktiki xüsusiyyətləri//–Bakı:Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Elmi əsərlər məcmuəsi,–2014.№60, – s.110-117;

3. Ягублу, О.К., Особенности использование результатов оперативно-розыскной деятельности в уголовном процессе Азербайджанской Республики//Проблемы противодействия актам терроризма отечественный и зарубежный опыт, –Алматы: –21 ноября, –2014, – с.113-120;

4. Yaqublu, O.K. Mənzildən oğurlanmış əmlakın axtarışının taktiki xüsusiyyətləri//–Bakı: Məhkəmə ekspertizası, kriminalistika və kriminologiyanın aktual məsələləri. Elmi əsərlər məcmuəsi, – 2019.№67, – s.155-159;

5. Yaqublu, O.K. Mənzil oğurluqlarının istintaqında mütəxəssisin iştirakı, onun hüquq və qanuni mənafeyinin qorunmasında qanunvericilikdə olan aktual problemlər// "Müasir dövrdə insan hüquqların aktual problemləri" Beynəlxalq elmi-praktik konfransının materialları, – Bakı: – 27 dekabr, – 2022, – s. 190-197;

6. Yaqublu, O.K. Mənzil oğurluqlarının törədilməsi üsulunun bəzi səciyyəvi xüsusiyyətləri və onun kriminalistik əhəmiyyəti//– Bakı: "Qanun" elmi hüquq jurnalı, – 2023.№2(340), – s. 57-64;

7. Yaqublu, O.K. Mənzildən oğurluq edən şəxsin axtarışı və tutulmasının taktiki xüsusiyyətləri//–Bakı: Polis Akademiyasının "Elmi xəbərləri" elmi hüquqi jurnalı, – 2023.№2(38), s. – 138-143;

8. Yakublu, O.K. Some Criminal-Procedural, Criminalistic and Criminological Aspects of Studying the Personality of Minors Who Have Complete Theft//–Dnipro: Granı.The scientific and theoretical almanac, –2023. №3 (26), – s.74-77. https://grani.org.ua/index.php/journal/issue/view/194/abc

9. Yaqublu, O.K. Mənzil oğurluqlarının istintaqında xüsusi biliklərdən istifadənin nəzəri və təcrübi aspektləri // – Bakı:"Qanun" elmi hüquq jurnalı, – №7 (345), 2023.№7(345), – s. 72-77;

10. Yaqublu, O.K. Mənzil oğurluğu cinayətlərinin törədilməsinə səbəb və şərait yaradan halların kriminalistik xüsusiyyətləri //–Bakı: Polis Akademiyasının "Elmi xəbərləri" elmi hüquqi jurnalı, –2023. №4(40), – s. 118-124.

Dissertasiyanın müdafiəsi 25 12 2024-cü il tarixində, saat 14:00-da Milli Aviasiya Akademiyası nəzdində fəaliyyət göstərən ED 2.45 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: Bakı şəhəri, Mərdəkan pr. 30.

Dissertasiya işi ilə Milli Aviasiya Akademiyasının kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Milli Aviasiya Akademiyasının rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 11 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 18.11.2024-cü il
Kağızın formatı: A5
Həcm: 58525 işarə
Tiraj: 100